**1. Məxfilik siyasəti**

**1.1.** Hazırkı Məxfilik Siyasəti https://evler.az Saytının istifadəsi üzrə Ofertanın ayrılmaz hissəsidir.

**1.2.** Hazırkı Məxfilik Siyasəti İstifadəçinin şəxsi məlumatlarının alınması, saxlanılması, işlənməsi, istifadəsi, açıqlanması və müdafiəsi qaydalarını müəyyən edir.

**1.3.** İstifadəçilərin şəxsi məlumat bazası Administrasiyanın ünvanı üzrə yerləşir.

**1.4.** Şəxsi məlumatlar bazasının sərəncamçısı Administrasiyadır - “Evler.az MMC” şirkətidir.

**1.5.** Saytda İstifadəçinin qeydiyyatı zamanı, elanın dərc edilməsi üçün formanı doldurarkən və ya göndərmələrə abunə yazılma zamanı, həmçinin də Saytdan istifadənin başqa hallarında, İstifadəçi Administrasiyaya elanla bağlı və şəxsi məlumatlar verir. Məlumatın toplanması Saytın istifadəçilərinin sorğularının keçirilməsi yolu ilə də həyata keçirilə bilər. Belə sorğularda iştirak istifadəçilərin icazəsi ilə həyata keçirilir.

**1.6.** İstifadəçi Sayta şəxsi məlumatların və istənilən başqa informasiyanın verilməsi haqqında qərarı sərbəst və könüllü qəbul edir. Bununla İstifadəçi şəxsi məlumatların və informasiyanın Administrasiya tərəfindən işlənməsinə və ya işlənməsi üçün onların Administrasiyanın tapşırığı ilə hərəkət edən başqa istifadəçilərə və/və ya üçüncü şəxslərə ötürülməsinə razılıq verir.

**1.7.** Şəxsi məlumatların işlənməsi anlayışı özündə istənilən hərəkət və ya hərəkətlərin toplanmasını, qeydiyyatını, yığımını, saxlanmasını, uyğunlaşdırılmasını, dəyişdirilməsini, yenilənməsini, istifadəsini, yayılmasını, reallaşdırılmasını, ötürülməsini (o c. xaricə), habelə şəxsi məlumatların, həmçinin informasiya (avtomatlaşdırılmış) sistemlərinin istifadəsi ilə məhv edilməsini ehtiva edir

**1.8.** Şəxsi məlumatların işlənməsinin məqsədləri aşağıdakılardır:

**1.8.1.** Saytın, onun xidmətlərinin fəaliyyətinin yaxşılaşması üçün statistik və analitik məlumatların alınması;

**1.8.2.** Saytda göstərilən xidmətlərin çeşidinin genişləndirilməsi;

**1.8.3.** Saytın və ya üçüncü şəxslərin informasiya və ya reklam xəbərlərinin alınması (yeni imkanlar, aksiyalar və başqa məlumatlar haqqında xəbərdarlıq);

**1.8.4.** İstifadəçilərin və ya üçüncü şəxslərin qanunsuz və ya icazəsiz hərəkətlərinin qarşısının alınması və bununla bağlı xəbərdarlıq edilməsi;

**1.8.5.** qüvvədə olan qanunvericiliyin tələblərinə riayət edilməsinin təminatı.

**1.9.** Saytda İstifadəçilər haqqında aşağıdakı informasiya toplanır:

**1.9.1.** Saytdan istifadə zamanı İstifadəçi şəxsi informasiyanı daxil edir və ya başqa üsulla açıqlayır. Belə informasiya İstifadəçinin adı və soyadı, e-maili və şifrəsi, telefon nömrəsi, onun olduğu məkan və ünvanı ola bilər. Əgər İstifadəçi sosial şəbəkə profili vasitəsilə daxil olarsa, Sayt həmin sosial şəbəkənin profilində yerləşdirilmiş informasiyanı toplaya bilər. Saytın internetdə İstifadəçinin məlumatlarının yayılması və dərc edilməsi üçün kanal verməsi baxımından, İstifadəçi Sayta yerləşdirilmiş informasiyaya görə məsuliyyət daşıyır.

**1.9.2.** Sayta giriş zamanı proqram təminatı tərəfindən avtomatik toplanan texniki informasiya.

**1.10.** Saytda istifadəçilərin irqi və ya etnik mənşəyi, siyasi və dini dünyagörüşü, peşə və iş yerləri, siyasi partiyalara və həmkarlar ittifaqlarına üzvlük, məhkumluq, səhhəti və cinsi haqqında, eləcə də biometrik və ya genetik məlumatlar toplanmır və işlənilmir.

**1.11.** İstifadəçinin icazə verdiyi, eləcə də Oferta və ya qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, Saytın Administrasiyası üçüncü şəxslərə istifadəçilər tərəfindən təqdim edilmiş heç bir şəxsi və ya başqa məlumatları vermir.

**1.12.** Saytın Administrasiyası istifadəçilərlə bağlanmış konkret müqavilələrdə müəyyən edilmiş məlumatları Saytla əməkdaşlıq edən şəxslərə verə bilər.

**1.13.** Administrasiya Saytdan istifadə prosesində istifadəçilər tərəfindən təqdim edilmiş informasiyanı və şəxsi məlumatları satmır və icarəyə vermir.

**1.14.** İstifadəçilər arasında qarşılıqlı əlaqəni asanlaşdırmaq məqsədilə, Saytda göstərilən xidmətlər başqa istifadəçilərin əlaqə informasiyasına məhdudlaşdırılmış giriş nəzərdə tutur. Başqa istifadəçilərin məlumatlarından istifadə hüququ Oferta ilə məhdudlaşdırılır.

**1.15.** Saytın İstifadəçisi yazılı icazə və ya istifadə hüququnun təsdiqi olmadan başqa İstifadəçinin məlumatlarından istifadə etməməyi öhdəsinə götürür. Saytdan istifadə ilə əlaqədar başqa İstifadəçilər haqqında məlumatlar yalnız elan predmeti barəsində

sazişlərin icrasında istifadə edilə bilər. Beləliklə, İstifadəçiyə birbaşa reklam xarakterli və ya digər arzuolunmaz elektron məktubların göndərilməsi məqsədilə, eləcə də hüquqazidd və digər İstifadəçinin xəbəri və razılığı olmadan hərəkətlərin törədilməsi ilə bağlı digər İstifadəçinin e-mailindən və telefon nömrəsindən istifadə etməyə icazə verilmir.

**1.16.** İstifadəçi Saytdan istifadə prosesində təqdim etdiyi şəxsi və başqa məlumatları istənilən vaxt qismən dəyişmək, silmək və ya başqa üsulla düzəliş etmək imkanına malikdir.

**1.17.** İstifadəçi Sayta yerləşdirdiyi istənilən məlumatların düzgünlüyünə və dəqiqliyinə görə məsuliyyət daşıyır.

**1.18.** Əgər İstifadəçi Sayta girişi, qeydiyyatı və Saytdan istifadəni OpenID xidməti vasitəsilə edirsə, məlumatların ötürülməsi və onlardan istifadə qaydasını müvafiq xidmətin parametrlərində qura bilər.

**1.19.** Sayt və Administrasiya İstifadəçinin şəxsi məlumatlarının üçüncü şəxslərin icazəsiz girişindən müdafiəsi üçün bütün səmərəli ölçüləri qəbul edir.

**1.20.** Sayt tərəfindən toplanan və işlənən bütün şəxsi məlumatlar korporativ şəbəkədən kənarda girişin olmadığı bir və ya bir-neçə qorunan serverdə saxlanılır. İstifadəçilərin şəxsi və başqa informasiyasına giriş və istifadə hüququ olan və müvafiq funksiyaları yerinə yetirən Administrasiyanın bütün əməkdaşları İstifadəçilər haqqında informasiyanın üçüncü şəxslərə yayılmaması haqqında razılaşma imzalayırlar.

**1.21.** İstifadəçi şəxsi məlumatlarının Saytdan silinməsinə dair sorğu göndərə bilər. Belə bir sorğu olduqda, onun haqqında toplanan bütün şəxsi məlumatlar silinəcək və gələcəkdə Sayta girişin təmin edilməsinə zəmanət verilməyəcək.

İstifadəçi haqqında şəxsi məlumatları silmək üçün info@evler.az ilə əlaqə saxlanılmalıdır.

## 2. Cookies, veb-mayaklar və oxşar texnologiyalar

**2.1.** Saytda informasiyanın saxlanılması üçün cookies fayllarından, veb-mayaklardan və başqa oxşar texnologiyalardan istifadə edilə bilər. Bu fayllar Sayt və onun əlavələrinin istifadəsini yüngülləşdirmək, xidmətlərin keyfiyyətinin artırılması, təhlükəsizlik, həmçinin reklam məqsədi ilə istifadə olunur.

**2.2.** İstifadəçidən alınan istənilən informasiya, həmçinin cookies fayllarının İstifadəçinin brauzerində yerləşdirilməsi xəbərdarlıq vasitəsilə və İstifadəçinin icazəsi ilə həyata keçirilir. İstifadəçi Saytdan istifadə etməklə cookies fayllarının brauzerdə saxlanmasına icazə verir.

**2.3.** Sayt İstifadəçinin brauzerinin aktiv olduğu və onun qurğusunda daha uzun müdddət qalan cookies və oxşar texnologiyalardan istifadə edir. Əgər İstifadəçinin qurğusu buna imkan verirsə, o, cookies və oxşar texnologiyaları bloklamaqda, silməkdə və ya söndürməkdə haqlıdır.

**2.3.1. Cookies** - İstifadəçinin brauzerində, yaxud kompüterinin, planşetinin və ya mobil cihazının yaddaşında saxlanılan kiçik həcmdə fayllardır. Cookies İstifadəçini həmin cihazlar, yaxud brauzer vasitəsilə Sayta növbəti dəfə həm bir sessiya çərçivəsində (“session cookie”) daxil olarkən, həm də təkrar daxil olmalar zamanı (“persistent cookie”) tanımağa imkan yaradır. Cookies sistemə giriş və statistika üçün lazımı məlumatları yığaraq Saytdan istifadəni yüngülləşdirir. Cookies özündə şəxsi məlumatları saxlamır.

**2.3.2. Veb-mayaklar** - İstifadəçini müəyyən etmək üçün Sayta, həmçinin onun xidmətlərinə, əlavələrə, məktub mübadiləsinə və adətən cookies ilə birlikdə işləyən alətlərə qoşula bilən kiçik qrafik təsvirlərdir (həmçinin "nöqtə markerləri" və ya "şəbəkə mayakları" kimi tanınır).

**2.3.3. Oxşar texnologiyalar** - lokal ümumi obyektləri və ya lokal anbarı istifadə edən, brauzerdə və ya qurğuda informasiyanı saxlayan, "flashcookies" və "HTML 5 cookies" kimi texnologiyalar və digər veb-proqramlar. Bu texnologiyalar İstifadəçinin brauzerlərində işləyir, bəzi hallarda isə brauzerlə idarə oluna bilmirlər və İstifadəçinin quraşdırdığı proqramlar və ya qurğular vasitəsilə bilavasitə idarəetmə tələb edə bilərlər.

**2.4.** Cookies və oxşar texnologiyalara icazəsiz girişin qarşısını almaq üçün Administrasiya bütün təhlükəsizlik tədbirlərini görür. İstifadəçi analoji təhlükəsizlik tədbirlərini görməyi öhdəsinə götürür. Administrasiya zəmanət verir ki, yalnız Administrasiya və/və ya Saytın xidmətlərinin səlahiyyətli təchizatçıları cookies məlumatlarına girişə malikdir.

**2.5.** Saytın xidmətlərinin təchizatçıları Saytın müxtəlif funksiyaları ilə bağlı köməklik göstərən şirkətlərdir. Administrasiya Saytın müvafiq xidmətlərinin İstifadəçiyə göstərilməsi, həmçinin Saytın bilavasitə fəaliyyəti ilə bağlı başqa məqsədlər üçün

bəzi xidmət təchizatçılarından istifadə edir. Xidmət təchizatçıları Sayt vasitəsilə cookies-i İstifadəçinin qurğusunda yerləşdirə bilərlər. Onlar, həmçinin başqa informasiyanı, məsələn IP-ünvanı və ya başqa eyniləşdiriciləri məlumaları toplaya bilərlər.

**2.6.** Yuxarıda göstərilən texnologiyalar vasitəsilə toplanıb saxlanılan istənilən informasiyadan İstifadəçinin icazəsi ilə istifadə edilir.

**2.7.** İstifadəçi brauzerin və ya qurğunun parametrlərini dəyişməklə cookies-i idarə edə bilər. İnformasiyanın toplanmasından və saxlanılmasından imtina üçün müvafiq parametrlərdə "Cookies-i saxlamamaq" bəndini işarələmək, həmçinin "Cookies-i təmizləmək" düyməsini basmaq lazımdır.

**2.8.** Sistemdə olan texniki xarakterli informasiya, məsələn, IP-ünvanlar şəbəkə avadanlığına xidmət edilməsi, statistik və başqa informasiyanın ümumiləşdirilməsi üçün istifadə olunur.

**2.9.** Göstərilən xidmətlərin yüksək keyfiyyətinin təmin edilməsi və istifadəçinin fərdi ehtiyaclarına və maraqlarına uyğunlaşdırılması üçün Sayt İstifadəçinin sistemə son girişi barədə məlumatları saxlayır.

**3. Məxfilik siyasətinə dəyişiklik edilməsi**

**3.1.** Administrasiya Məxfilik Siyasətinə dəyişiklik edə, silə və ya qaydaları yeniləyə bilər.

**3.2.** Əgər İstifadəçi edilmiş dəyişikliklərlə razı deyilsə, o Saytdan istifadəni dayandırmalıdır. Əgər İstifadəçi Saytdan istifadəyə davam edirsə, o, bütün dəyişiklikləri və Məxfilik Siyasətinin yeni redaksiyasını bütövlükdə qəbul edir.